**Bakı Xəbər**. - 2024. - 28-29 may. - № 92. - S. 8.

# “Yaşıl keçid" dövründə ekoloji yönümlü vətəndaş qurumlarının rolu...

**Məhəmmədəli Qəribli**

**Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına ev sahibliyi ölkəmizin qlobal iqlim dəyişikliyinə qarşı mübarizə strategiyasını nümayiş etdirir.**

Azərbaycan ekoloji problemlərin həllinə, ətraf mühitin qorunmasına xüsusi diqqət yetirir, bu istiqamətdə davamlı tədbirlər görülür. Yaşıl texnologiyalara, innovasiyaların tətbiqinə, enerji səmərəliliyinə və ekoloji cəhətdən təmiz təcrübələrə sərmayə qoyulması və onların təşviqi ətraf mühitin qorunmasına öz töhfəsini verir. Ölkənin istixana qazlarının tullantılarını azaltmaq səyləri, bərpa olunan enerji mənbələrindən istifadəni genişləndirməsi, azad olunan ərazilərin “yaşıl zona”ya çevirilməsi müsbət addımlar kimi qiymətləndirilə bilər. Beynəlxalq sazişlərdə və əməkdaşlıqlarda fəal iştirak iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərə sadiqliyi əks etdirir. Bu baxımdan Bakıda keçiriləcək COP29 iqlim dəyişikliyinin azaldılmasına və yaşıl təcrübələrin təşviqinə mühüm töhfə verəcək.

80 minə qədər nümayəndənin iştirak edəcəyi COP29 tədbiri Azərbaycanın ekoloji məsələlərdə əldə etdiyi naliyyətlərin nümayişi ilə yanaşı, Ermənistanın işğal dövründə Qarabağda törətdiyi ekoloji soyqırımla bağlı bütün dünyanı məlumatlandırmaq üçün mühüm formatdır. Ermənilər 30 ilə yaxın işğal altında olan ərazilərimizdə meşələrimizi qırıb, nadir və qiymətli ağac növlərini məhv edib, çaylarımızı zərərli tullantılarla çirkləndirib, su anbarlarımızı dağıdıb, biomüxtəlifliyə, təbiət abidələrimizə böyük zərbə vurub. COP29 tədbiri həm də bu həqiqətləri dünyaya yayacaq.

**Bu miqyasda olan tədbir həm də QHT-lər üçün geniş əməkdaşlıq imkanları açır**

Qeyd edək ki, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin COP29 Təşkilat Komitəsində təmsil olunması vətəndaş cəmiyyətinin bu prosesdə fəal iştirakına yol açacaq. Azərbaycanda vətəndaş cəmiyyəti üzvlərinin iştirakı ilə keçirilən çoxsaylı beynəlxalq tədbirləri və ekoloji məsələlərlə bağlı icra edilən uğurlu layihələri nəzərə alsaq, Qeyri-Hökumət Təşkilatları Azərbaycanda keçiriləcək COP29 tədbirinə mühüm töhfə verəcək. Vətəndaş cəmiyyəti üzvlərinin dəstəyilə ekoloji problemlərin həlli üçün birlikdə mühüm addımlar atılacaq, qarşıya qoyulan hədəflərə uğurla nail olunacaq. Bu miqyasda olan tədbir həm də QHT-lər üçün geniş əməkdaşlıq imkanları açır. Dünyanın hər yerindən ekspertlərin və maraqlı tərəflərin bir araya gəlməsi vətəndaş cəmiyyəti üzvlərinin beynəlxalq əməkdaşlığı inkişaf etdirməsinə, bilik və təcrübə mübadiləsi aparmasına, beynəlxalq təşkilatlarla tərəfdaşlıq qurmasına kömək edəcək. Ona görə də, ictimai birliklər bu konfransdan mühüm əməkdaşlıq platforması kimi yararlana biləcəklər.

**COP29-la bağlı xüsusi qrant elan ediləcək**

Görünən budur ki, ölkəmizin vətəndaş cəmiyyətinin təmsilçiləri bu möhtəbər tədbirə ciddi hazırlaşır. Bir müddət əvvəl Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə “COP29: gözləntilər, perspektivlər” mövzusunda QHT-lərin ictimai müzakirəsi keçirilib.

Agentliyin İcraçı direktoru Aygün Əliyeva BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un 2024-cü ildə Azərbaycanda keçirilməsini tarixi uğur adlandırıb. A.Əliyeva Agentliyin 2024-cü ilin əvvəlində “COP29”la bağlı xüsusi qrant elan edəcəyini də açıqlayıb.

Tədbirdə COP28-də iştirak etmiş QHT sədrləri də öz mülahizələrini bölüşüb. “Yaşıl Tikinti Şurası”nın həmtəsisçisi və rəhbəri Guy Eames bildirib ki, “COP29”un Bakıda keçirilməsi Azərbaycanın yaşıl enerji siyasətinə qlobal dəstəyi nümayiş etdirir.

Tədbirin sonunda QHT-lər COP29-la bağlı birgə bəyanat qəbul edib.

**ADA universitetində 100-ə yaxın QHT nümayəndəsi üçün təlim keçirilib**

Fevralın 26-da QHT-lərə Dövlət Dəstəyi Agentliyində Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən COP29, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsində təmsil olunan QHT-lərlə, o cümlədən ekoloji profil üzrə fəaliyyət göstərən bir sıra ekspertlərlə görüş keçirilib. Görüşdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ilə bağlı Azərbaycan QHT-lərindən olan gözləntilər diqqətə çatdırılıb, onların COP29-da fəal şəkildə iştirakı üçün zəruri məsələlər müzakirə edilib.

Görünən budur ki, Azərbaycanda yüksək səviyyədə keçiriləcək bu tədbirə cəmiyyətimizin bütün sektorlarının hazır olması və töhfə vermələri zəruridir. Bu baxımdan QHT –lər də bu istiqamətdə öz bilik və bacarıqlarını artırmaqla həmin beynəlxalq tədbirə hazırlanmalıdırlar. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən ADA universitetində 100-ə yaxın QHT nümayəndəsi üçün təlim keçirilib. QHT –lər biliklərini yeniləmək və artırmaqla noyabr ayına kimi bu sahəyə- müxtəlif layihələrin icrasında, müxtəlif tədbirlərin təşkilində öz töhfələrini verə bilərlər.